AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

100 il

www.pq.mia.gov.az

polisazerbaycan

10 avqust 2023-cü il
cümə axşamı

1933-cü ildən çıxır
№ 30 (3644)



# Davamlı inkişaf əsas hədəfdir

Prezident İlham Əliyevin yerlərdə sənaye zonalarının yaradılması və əhalinin məşğulluğunun artırılması barədə tapşırığına uyğun olaraq yeni istehsal müəssisələrinin yaradılması istiqamətində işlər davam etdirilir

Prezident İlham Əliyev avqustun 7-də Qazax, Şəmkir, Samux və Bərdə rayonlarına səfəri çərçivəsində 8 obyektin açılış mərasimində iştirak edib, rayonlarda görülən işlərin icra vəziyyəti ilə tanış olub, tapşırıq və tövsiyələrini verib.



Dövlətimizin başçısı əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Qazax şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət etdikdən sonra Qazax rayonunda üç yaşayış məntəqəsini birləşdirən 14 mindən çox əhalinin istifadə etdiyi Qarapapaq-Çaylı avtomobil yolunun açılışında iştirak edib, "Qazax" Əlahiddə Sərhəd Diviziyasının qarnizon kompleksi ilə tanış olub və Qazax Müəllimlər Seminariyası ADA Universiteti Qazax Mərkəzində yaradılan şəraitlə maraqlanıb.

Qeyd olunub ki, ADA Universiteti tərəfindən 2022-ci ildən etibarən müəllimlər üçün "Bir müəllimin manifesti" birillik üçmərhələli ixtisasartırma proqramı həyata keçirilir. Gələcəkdə ADA Universiteti tərəfindən Qazax Mərkəzində 10-11-ci siniflərin təhsil alacağı müasir tipli Yeni Məktəbin qurulması, bir neçə bakalavr ixtisasının açılması və kollecin təsis edilməsi nəzərdə tutulur. Hazırda Mərkəzdə fəaliyyət göstərən magistr proqramlarının tədrisinə ADA Universitetinin müəllim və professor heyəti cəlb olunub.

Sonra Prezident İlham Əliyev Qazax şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin istismara verilməsi, 425 nəfərin işlə təmin olunduğu "Venzana" mebel fabrikinin, Gəncə-Qazax-Gürcüstan yolunun dövlət sərhədi hissəsinin yenidən qurulan, ümumi uzunluğu 102 kilometr olan Gəncə-Qazaxbəyli hissəsinin açılışlarında iştirak edib.

Vurğulanıb ki, uzunluğu 130,15 kilometr olan dövlət sərhədi yolunun genişləndirilməsi və sürətin artması ilə vətəndaşların rahat və təhlükəsiz gediş-gəlişi təmin ediləcək. Bundan başqa, yolun iri yaşayış məntəqələrindən kənar keçməsi əhalinin və yoldan istifadə edən sürücülərin təhlükəsizliyi baxımından önəmlidir.

Sonra dövlətimizin başçısı Şəmkir rayonunda Məhəmməd Füzuli adına təbiət və humanitar fənlər təmayüllü tam orta məktəb-liseyin yeni binasının açılışını edib. Daha sonra Samux rayonuna gəlib.

Samux Rayon Mərkəzi Xəstəxanasının, Heydər Əliyev Fondunun "Təhsilə dəstək" layihəsi çərçivəsində inşa olunan Sərkar kənd uşaq musiqi məktəbinin yeni binalarının açılışını keçirən Prezident İlham Əliyev Bərdə rayonuna səfər edib, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Qarabağ Regional DOST Mərkəzinin və Qarabağ Regional Peşə Hazırlığı Mərkəzinin açılışında iştirak edib.

Elə həmin gün Prezident İlham Əliyevin bölgəyə səfəri başa çatıb.

# İctimai asayişin qorunmasında vətəndaş mövqeyi

Ulu Öndər Heydər Əliyev: "...hərə öz yerində mənəviyyatsız, cəmiyyəti narahat edən hərəkətlərin qarşısını almağa çalışmalıdır..."

Hamının bu və ya digər dərəcədə əlaqədar olduğu bir fəaliyyət sahəsi vardır ki, burada hər kəsdən məsuliyyət, fəal vətəndaşlıq mövqeyi tələb olunur. Bu, yaşadığımız cəmiyyətdə ictimai təhlükəsizlik sistemidir. Hamılıqla qəbul etdiyimiz bir həqiqət var ki, yüksək vətəndaşlıq keyfiyyətlərinin daşıyıcısı olan insan bu missiyaya tək polisin vəzifəsi kimi yox, həm də öz məsuliyyəti - vəzifəsi kimi yanaşmalıdır. Bu danılmazdır. Bəllidir ki, dövlətin, cəmiyyətin strateji məqsədlərinə xidmət vəzifəsini qanunla yerinə yetirən polisin fəaliyyəti hamılıqla qəbul edilən, arzulanan elə bir məqsədə yönəlib ki, hər bir vətəndaş daha təhlükəsiz yaşasın...

Bu gün Azərbaycanda kriminogen durum tam nəzarət altındadır. Konkret faktlar, rəqəmlər göstərir ki, ölkəmizdə cinayət və inzibati xətaların daha da azalması üçün vətəndaş təəssübkeşliyi aktualdır. Bu müasir dövrdə cəmiyyətdə hər bir vətəndaşın qarşısında dayanan birinci dərəcəli vəzifəyə çevrilməlidir. Belə bir zəruri, həm də yüksək mərtəbəyə çatmaq bir tərəfdən asandır, digər tərəfdən çətin. Asandır, ona görə ki, indi hərtərəfli inkişaf üçün qlobal miqyasda informasiya verən texniki imkanlar hüdudsuzdur. Çətindir, ona görə ki, ləyaqət məfhumunun meyarı xeyli dəyişib mürəkkəbləşib, cəmiyyətin sürətli tərəqqisi ilə əlaqədar olaraq insanın yüksək vətəndaşlıq mövqeyində dayanmasına tələb artıb.

(Ardı 2-ci səhifədə)

## Rəsmi xəbərlər

Prezident İlham Əliyev avqustun 8-də Xalq artisti Rasim Balayevə "İstiqlal" ordenini təqdim edib.

❖❖❖❖❖

Prezident İlham Əliyev avqustun 8-də 74-cü Beynəlxalq Astronavtika Konqresinin 2023-cü ildə Bakı şəhərində keçirilməsi ilə bağlı Azərbaycan Respublikasına gələcək əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi haqqında Sərəncam imzalayıb.

❖❖❖❖❖

Prezident İlham Əliyev avqustun 7-də Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında mədəni əlaqələrin inkişafında böyük xidmətlərinə görə Yuli Solomonoviç Qusmanın "Şərəf" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

❖❖❖❖❖

Prezident İlham Əliyev avqustun 5-də Rəcəb Zakir oğlu Rəhimlinin Naxçıvan Muxtar Respublikası Ordubad Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında Sərəncam imzalayıb.

# Beynəlxalq hüquqa çağırış

Dövlət sərhəd-buraxılış məntəqəsinin qurulması danışıqlara yeni istiqamət verdi

Müasir siyasi münasibətlər sistemində əsas amillərdən biri kimi önə çəkilən siyasi-hərbi sabitlik əməkdaşlığın və inkişafın təməlidir. Ölkəmizin post-müharibə dövründə qətiyyəti ona yönəlib ki, hərbi sabitlik sülhə əsaslansın. 2020-ci ilin noyabrında imzalanan üçtərəfli Bəyanata münasibət həm də tərəflərin dayanıqlı sülhə münasibətini müəyyənləşdirir.

2022-ci ildə Azərbaycan daha bir uğurlu addımı ilə seçildi - Laçın - Xankəndi istiqamətində yeni yolun istismara verilməsini vaxtından əvvəl təmin etdi. Ermənistan isə bunun qarşılığını verə bilmədi - əksinə, 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanata zidd olaraq Ermənistandan Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri üçün canlı qüvvə, silah-sursat, mina, eləcə də digər hərbi təyinatlı vasitələrin daşınmasını daha da genişləndirdi. Eyni zamanda, post-müharibə dövründə bu yolla Azərbaycanın təbii sərvətləri Ermənistana daşınırdı.

Bu vəziyyət Azərbaycanın əsaslı bir qərarı ilə nəticələndi - aprelin 23-də Azərbaycan Respublikası tərəfindən ölkəmizin suveren ərazilərində, Ermənistan ilə sərhəddə, Laçın-Xankəndi yolunun başlanğıcında sərhəd-buraxılış məntəqəsi quruldu. Bu addım regionda yeni vəziyyət yaratdı - eyni zamanda, bu "post"un qurulması hər zaman havadarlarına güvənən Ermənistanı beynəlxalq hüquqa hörmət etməyə növbəti çağırış idi.

Bununla bağlı Prezident İlham Əliyev "Euronews" televiziyasına müsahibəsində bildirib ki, Laçın-Xankəndi yolundakı vəziyyət aprel ayının 23-də sərhəd-buraxılış məntəqəsi yaranandan dəyişdi. O vaxta kimi bizim sülh razılaşmasına gəlmək üçün iki il yarım vaxtımız var idi. Yeganə əngəl Ermənistanın rəsmi surətdə Qarabağı Azərbaycanın bir hissəsi olaraq tanımaq istəməməsi idi: "Bəli, onlar bunu bəyanatlarla, şifahi bəyanatlarla edirdilər. Bu da mövqeyin ifadə edilməsinin bir yolu idi, lakin onlar sənədə imza atmalı idilər. Odur ki, mən bu iki məsələnin bir-biri ilə bağlı olduğunu düşünürəm. Çünki Ermənistanla aparılan sülh danışıqlarının uğurlu bir ssenari ilə yekunlaşacağına ümid edirəm və bunun yaxın aylarda baş verəcəyinə ümidvaram".

# "Böyük Qayıdış"ın yeni ünvanı: Füzuli

İşğaldan azad edilmiş ərazilərdə "Böyük Qayıdış"ın reallaşdırılması üçün əhalinin dayanıqlı məskunlaşması təmin olunacaq

Azərbaycan dövlətinin gündəliyində dayanan əsas məsələlərdən biri, daha dəqiq ifadə etsək, 5 milli prioritetdən biri 44 günlük Vətən müharibəsində işğaldan azad edilən ərazilərə "Böyük Qayıdış"ın təmin olunmasıdır. Güclü Azərbaycan dövləti məcburi köçkün soydaşlarımızın işğaldan azad olunan ərazilərə "Böyük Qayıdış"ını layiqli şəkildə təmin etmək əzmi nümayiş etdirir.

Vətən müharibəsində müzəffər Ordumuzun Zəfəri sayəsində işğaldan azad olunan ərazilərə həyat qayıdır. Qalib Azərbaycanın postmüharibə mərhələsində həmin ərazilərdə həyata keçirdiyi Böyük Qayıdışın yeni ünvanı bəlli olub. Bu, Füzuli şəhəri olacaq. Avqustun 5-də Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi Füzuli şəhərinə birinci mərhələdə köçürüləcək ailələr arasında püşkatma keçirib.

Püşkatmada 144 ailə ( 509 nəfər) iştirak edib. Ailə tərkibinə uyğun olaraq, onlardan 51-i ikiotaqlı, 76-sı üçotaqlı, 17-si dördotaqlı mənzil ilə təmin olunub. Həmin ailələr indiyədək Bakı və Sumqayıt şəhərlərində, Abşeron rayonu ərazisində müvəqqəti məskunlaşma yerlərində yaşayıblar.

Cəhd varsa, qarşısı alınacaqdır! Ancaq... səhifə 2

Səngərsiz əsgər – Polis səhifə 3

Polis gözləmir: İctimai sabitlik etibarlı qorunur səhifə 3

Daxili İşlər Nazirliyi müsabiqə elan edir səhifə 4

# Cinayət törətmiş şəxslərin ekstradisiyasında DİN-in səlahiyyətləri müəyyən edilib

**Prezident İlham Əliyev avqustun 8-də “Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 982-VIQD nömrəli Qanununun tətbiqi və “Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 11 iyun tarixli 499 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 982-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə qərara alıram:

1. Müəyyən edilsin ki:

1.1. “Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında” Azərbaycan Respublikası Qanununun 1.4-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi həyata keçirir;

1.2. həmin Qanunun 7.1-ci maddəsinin birinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi həyata keçirir.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti “Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 982-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. “Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 11 iyun tarixli 499 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 6, maddə 397) 2-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

“2. Müəyyən edilsin ki:

2.1. “Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında” Azərbaycan Respublikası Qanununun 1.4-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi həyata keçirir;

2.2. həmin Qanunun 6.1-ci maddəsində və 7.1-ci maddəsinin birinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi həyata keçirir.”

# İctimai asayişin qorunmasında vətəndaş mövqeyi

## Ulu Öndər Heydər Əliyev: “...hərə öz yerində mənəviyyatsız, cəmiyyəti narahat edən hərəkətlərin qarşısını almağa çalışmalıdır...”



*(Əvvəli 1-ci səhifədə)*

Bilirik ki, ləyaqət hər şeydən qabaq insan mənəviyyatının can atdığı zirvədir. İnsanlar nəsil-nəsil o zirvəyə çatınca sonra yetişən övladların gözləri qarşısında yeni-yeni üfüqlər açılır. Deməli, əməllərimizdə olan əxlaq, başqa sözlə desək, mənəviyyat yetişən nəsilə örnəkdir.

Cinayətlərin açılmasında vətəndaşlar o qədər həssaslıq nümayiş etdirir ki, təhlükəli əməllərə meyilli adamlar cəmiyyətin kütləvi etirazından ehtiyat edir, qorxur. Və bilir ki, onu ziyanlı əməlinə görə təqib edən tək polis deyil, eyni zamanda mundirsiz vətəndaşdır. Bir fikir hakimdir ki, cəmiyyətə qarşı açıq hörmətsizlik göstərən, ləyaqətsizliyə yuvarlanan insan hər cür qanunsuz əməl törədə bilər. Sağlam mənəviyyatlı minlərin, milyonların içərisində, sayı az olsa da, əxlaqı və əməli ziyanlı olanlar da vardır. Bunlar cəmiyyətin normalarına qarşı çıxır, başqasının əmlakına göz dikir, həyatını şəxsi maraq və ambisiyaları çərçivəsində təmin etməyə çalışır. Ayrı-ayrı şəxslərin hərəkətlərində, əxlaqında özünü büruzə verən və cəmiyyəti təhdid edən bu hallar başqalarına da sirayət edir.

Məhz bu amilə nəzərən israrla vurğulamaq olar ki, belələrinə qarşı mübarizə hər kəsdən vicdan borcu, fəal vətəndaşlıq mövqeyi tələb edir. Bu da o, həqiqətin göstəricisidir ki, fəal vətəndaşlıq mövqeyi təkcə insanın ölkəyə, dövlətə mənsubluğunu, borc və vəzifələrini əhatə etmir, eləcə də təbii və ictimai təəssübkeşlik səviyyəsi ilə ölçülür.

### *İctimai qayda ilə bağlı ideoloji dərs*

İndi baxaq, nəzərdən keçirək - bu əxlaqı özünün həyat normasına çevirən insanlarla mübarizədə polis bəzən əsassız ittihamlara, dedi-qodu söhbətlərinin mövzusuna çevrilir. Təbiidir. Göründüyü kimi, hər şey aşkar meydandadır. Bəs niyə belədir? Burada günahkarın birincisi insanın tərbiyəsidir. Necə ki, ulu öndər Heydər Əliyev bəyan edirdi ki, hərə öz yerində mənəviyyatsız, cəmiyyəti narahat edən hərəkətlərin qarşısını almağa çalışmalıdır: **"Təəssüflər olsun ki, bizim cəmiyyətimizdə çoxları bunu görür, amma buna münasibət bildirmir. Yaxud da üzünü o tərəfə döndərir: "Mənə nə dəxli var". Bu desə ki, "mənə nə dəxli var", o desə ki, "mənə nə dəxli var", o birisi desə ki, "mənə nə dəxli var", onda bizim millətimiz ayrı-ayrı təxribatçıların əli ilə get-gedə, əlbəttə ki, çox böyük çətinliklərlə rastlaşacaqdır".**

Həqiqətən də tədqiqatlar, ideloji yanaşmalar sübut edir ki, "mənə nə dəxli var" nidası inkişafı geri salan, təhlükəli əməllərə meyilli adamlara əl-qol açmağa imkan verən ən böyük bəladır. Ulu öndərin cəmiyyətdə baş verən təhlükəli əməllərə dair fikirləri xüsusi əhəmiyyətə malik proqram sənəddir. Hamı bu sənəddə qaldırılan məsələlərin həyata keçməsi üçün müvafiq imkanlardan istifadə etməli, əlindən gələni əsirgəməməlidir.

Hansı yöndən baxsaq, aydın bir məntiq ortaya çıxır ki, əvvəlki dövrdən yadigar qalan örnək ideyalar hansı münasibətlə deyilmiş olsa da həmişə müasirliyini saxlayan bir həqiqəti ifadə edir: Fəal vətəndaşlıq!

Xalqın adət-ənənəsinə ehtiram göstərməyən, "mənə belə xoşdur", "mənə nə dəxli var" deyən adamların hərəkəti ibtidai icma dövrünün təfəkkürünə bənzəyir. İnsan fiziki, fizioloji və psixoloji bir struktur kimi nəzərdən keçirdikdə aydın olur ki, onun əməllərinə, bu əxlaqına izah tapmaq mümkünsüzdür. Ətrafımızda baş verənləri olduqları yerdən yox, olduğumuz yerdən görürük. Beləliklə, özümüzə sual verməli oluruq: bəs bu əxlaqın daşıyıcısı olan, "mənə nə dəxli var,"- düşüncəsi cəmiyyət üçün nə vəd edir? Düşünək...





*"Polis"*

# RESPUBLİKA XƏBƏRLƏRİ

## Rəhbər göstərişlər icra edilir

Prezident İlham Əliyevin göstərişi əsasında şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərlə bağlı sosial proqramlar 5 dəfə genişlənib. Onlara Bakı və bölgələrdə daha 100 mənzil və fərdi ev verilib. Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən verilən məlumatda bildirilir. Avqustun 6-da Bakı və 15-ə yaxın rayonda daha 100 mənzil və fərdi ev təqdim olunub. Beləliklə, yeni verilən mənzil və fərdi evlər də daxil olmaqla postmüharibə dövründə 5 min 100, bu il 600, ümumilikdə, ötən dövrdə 13 min 900 mənzil və fərdi ev şəhid ailələrinə və müharibə əlillərinə təqdim edilib.

## Obyektlərin təhlükəsiz istismarı müzakirə edilib

Təhlükə potensiallı obyektlərin təhlükəsiz istismarının təmin edilməsi sahəsində dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin əlaqələndirilməsi üzrə Koordinasiya Komissiyasının iclası keçirilib. Komissiyanın ilk iclasında Prezidentin 2022-ci il sentyabrın 24-də təhlükə potensiallı obyektlərin təhlükəsiz istismarının təmin edilməsi sahəsində dövlət orqanlarının fəaliyyətinin əlaqələndirilməsi üzrə Koordinasiya Komissiyasının yaradılması haqqında Sərəncamının icrası ilə bağlı qarşıda duran vəzifələr və görüləcək işlər müzakirə edilib.

# Cəhd varsa, qarşısı alınacaqdır! Ancaq…

## Mülkiyyət cinayətlərinə qarşı rəqəmsal təhlükəsizlik sistemi ən səmərəli vasitədir

Oğurluq hallarına qarşı daxili işlər orqanları tərəfindən kompleks profilaktik tədbirlər diqqət mərkəzində saxlanılır. DİN-in Baş Mühafizə İdarəsi ən müasir tələblərə və standartlara uyğun etibarlı fəaliyyət göstərir. Respublika üzrə mühafizəyə cəlb edilən bütün obyektlərdə - yaşayış evlərində təhlükəsizlik sistemi mülkiyyət cinayətlərinə qarşı sipərə çevrilib.

Təhlükəsizlik sisteminin imkanlarından yararlanmaqla, mühafizə qurumları tərəfindən ötən il mühafizə olunan yaşayış evi və obyektə oğurluq məqsədilə edilən müdaxilənin qarşısı alınaraq şübhəli şəxslər “isti izlər”lə saxlanılaraq, istintaq orqanlarına təhvil verilib. Eləcə də mühafizə polisinin xidməti marşrutlarında cinayət törədən, axtarışda olan, ictimai qaydanı pozan şəxslər müəyyən olunublar.

Daxili işlər orqanları tərəfindən tətbiq olunan texnologiyanın etibarlılığı ondadır ki, mühafizə olunan ünvana kənar müdaxilənin olması barədə informasiya stasionar telefon kabelləri ilə yox, elektromaqnit dalğaları ilə ötürülür. Bununla mühafizə olunan yerin kənar müdaxiləyə qarşı bir neçə istiqamətdən rəqəmsal (digital) həssaslığı polisin həmin ünvana 2-5 dəqiqə içərisində çatmasını şərtləndirir. Bununla yanaşı, xüsusi yerlərdə quraşdırılan kameralar vasitəsilə mühafizə olunan yerdən foto-video görüntülər elektron qaydada dərhal polis orqanına ötürülür. Əgər kimsə oğurluğa cəhd edib, təhlükəsizlik sisteminin mövcudluğundan xəbər tutub ərazidən uzaqlaşsa belə , onunla bağlı məlumatlar mərkəzdə toplanır.

Reallıqlar və faktlar, aşkarlanan hüquqazidd əməllərin təhlili göstərir ki, mühafizə edilən ünvanlarda rəqəmsal təhlükəsizlik sistemi ən səmərəli vasitədir.

*Aytəkin Nəcəfova,*
*polis polkovnik-leytenantı*

# Polis gözləmir: İctimai sabitlik etibarlı qorunur

## Qanunu pozmağa meyilli şəxslər daima cinayət və ya inzibati məsuliyyət təqibindən yayınmaq üçün bütün mümkün vasitələrdən istifadə edir

Qanun kitabları insanlara aşılayır ki, qanunlar əsasında yaşa. Deməli, həyatda yaşamaq üçün diqqətli və məsuliyyətli olmalısan ki, qanun pozulmasın. Diqqətli olmadınsa, qaydalardan kənara çıxacaqsan, məsuliyyətli olmadınsa, başqasının hüququ pozulacaq. Elə bir standart ki - nə əzilməyəsən, nə də kimisə əzməyəsən. Ən çətin olanı da budur. Bunu bacaranlar var. Polisin işi o adamlarladır ki, onlar qanunlar əsasında yaşamır. Nəhayət, belə adamların məsuliyyətə cəlb olunması üçün əsas yaranır.

Dünyada gedən proseslərdən də bilirik ki, bu məsələdə qanun keşikçilərinin - polisin mövqeyi heç də birmənalı qarşılanmır. Qanunu pozmağa meyilli şəxslər daima cinayət və ya inzibati məsuliyyət təqibindən yayınmaq üçün bütün mümkün vasitələrdən istifadə edir. Təsadüfi deyil ki, cinayətə meyilli olanlar da getdikcə təkmilləşir, müasir texniki vasitələrdən geniş istifadə edirlər.

Azərbaycanda ictimai təhlükəsizlik elə etibarlı qorunan ölkələr sırasındadır ki, bir sıra ölkələrlə müqayisədə hər 100 min nəfərə düşən cinayətlərin sayı 40-50 faiz aşağıdır.

Ancaq hamı bir fikirlə razıdır - təhlükə olanda ilk yada düşən polis olur. Dilimizdə bu ifadə var - kimisə təhlükədən xilas etmək istəyirlərsə - deyirlər, "polis çağır!" Əslində, xalq dili özü cəmiyyətdə polisin üstün mövqeyini ən dramatik anda etiraf edir. Ulu öndərimiz haqlı olaraq qeyd edirdi ki, polis işi böyük məsuliyyət tələb edən peşədir. Bu peşəyə yiyələnən insan cəmiyyətin və ətrafında olan hər bir fərdin təhlükəsizliyinə cavabdehlik daşımaq, bunun üçün hətta həyatını belə əsirgəməmək məsuliyyətini üzərinə götürür. Çünki təhlükəli əməlin elə ilk anda müəyyən edilib qarşısının alınması polisin əsas vəzifələrindən biridir. Polis gözləmir ki, xırda bir inzibati xəta cinayətə çevrilsin.

Qərb və Avropa təmsilçiləri bu fikri daim bəyan edirlər ki, Azərbaycanda ictimai sabitlik etibarlı qorunur. Azərbaycan Polisinin bu istiqamətlərdə əldə etdiyi təcrübələr daim beynəlxalq səviyyədə də təqdir olunur. Bu, həm də o həqiqətin göstəricisidir ki, Azərbaycan çoxsaylı beynəlxalq tədbirlərə, forumlara, konfranslara ev sahibliyi etməklə, dünyada tolerantlıq məkanı, dözümlülük, multikulturalizm mərkəzi kimi tanınır. Təbii ki, bu uğurların arxasında müxtəlif çətin şəraitlərdə xidmət aparan digər hüquq mühafizə orqanları ilə birgə Azərbaycan Polisi dayanır.

Bütün dünyada polis sistemi var. Hər xalqın bu sahədə işləyən insanlara münasibətində ortaq baxış mövcuddur. O dünya ki, onun insanın tələbkardı, o dünya ki, onun insanının arzuları sonsuzdur. Onlar arasında prosesləri, hadisələri şərh və təhlil edən insanlar, bir də yozan insanlar var. Hadisələri və prosesləri yozanlar üçün ümumi maraqlar olmur. Qanunlarla tənzimlənən polisin fəaliyyəti o qədər görünən üzdədir ki, o hadisələrin və proseslərin içindədir. Yəqin ona görədir ki, polisin davranışları insanlar tərəfindən diqqətdə saxlanılır.

*Çingiz Şıxverdiyev,*
*polis polkovniki*

### Vətən müharibəsi döyüşçüsü

# Səngərsiz əsgər – Polis

## Dövlətə və xalqa sədaqətlə xidmət təkcə borc deyil, öhdəlikdir, məsuliyyətdir

Vətən müharibəsində hamı bir daha əmin oldu ki, dinc günlərdə qayda-qanunun keşiyində duran, əmin-amanlığı qoruyan, düşmənlə döyüşdə vuruşanlar sırasında tapşırıqları vətən, dövlət namine xidmət sayan Daxili İşlər Orqanlarının əməkdaşları – polislər də olub. Müharibə bitib, indi onlar da qayda-qanunun keşiyində səngərsiz əsgər kimi xidmətlərini davam etdirirlər.



Onların, yüzlərin sırasında olanlardan polis kapitanı Qurban Səfərlinin xidmət yolu döyüşlərdən keçib. O, 1991-ci ildə İsmayıllı rayonunun Zərnava kəndində doğulub. Orta məktəbi bitirdikdən sonra hərbi xidmətə yollanıb. Daxili Qoşunların



Ali Hərbi Məktəbinin məzunudur. Daxili Qoşunların respublikanın müxtəlif bölgələrində yerləşən hərbi hissələrində xidmətini davam etdirib, eləcə də Türkiyədə "Komando" kurs-təlimlərini uğurla başa vurub.

2020-ci il sentyabr ayının 27-də başlayan Vətən müharibəsində Q.Səfərli Murovdağ, Füzuli, Cəbrayıl



və Xocavəndin düşmən işğalından azad olunmasında igidlik nümayiş etdirib. Qırmızı bazar istiqamətində gedən ağır döyüşlərdə yaralansa da müalicə aldıqdan sonra döyüş yoldaşlarının sırasına qayıdıb.

Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə o "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilib.

Qəhrəmanımız 2021-ci ildən xidmətini İsmayıllı Rayon Polis Şöbəsində davam etdirir.

*Mahir Məsimov*
*polis kapitanı*

# Genefondumuzu hədəfə alanlar

## Narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri davam etdirilir

Bu gün ölkəmizdə narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə bütün istiqamətlər üzrə DİN tərəfindən davam etdirilir.

Narkotiklərin qanunsuz dövriyyəsinə qarşı aparılan qətiyyətli mübarizə bu ilin 7 ayı ərzində statistik rəqəmlər tədbirlərin miqyasını göstərir.

Ötən dövr ərzində daxili işlər orqanları əməkdaşları tərəfindən 6588 fakt aşkar edilib ki, onlardan 2290 satış, 4074 saxlama, 219 əkin, 5 fakt isə digər cinayət halları təşkil edib. Aşkar edilən faktlar üzrə müsadirə olunan ümumi çəkisi 3 ton 337 kiloqramdan çox narkotik vasitələrin 194 kiloqramdan artığını tiryək, 984 kq heroin, 1 ton 986 kq marixuana, 49 kq həşiş, 121 kq digər narkotik vasitələr, 256 kq psixotrop maddələr təşkil edib. Faktlarla bağlı 4896 nəfər saxlanılaraq məsuliyyətə cəlb edilib.

*"Polis"*

# Dilənçilik həyat tərzidir?

## İctimai təhlükəli əmələ meyilli olan şəxs üçün dilənçilik obrazı kamuflyaj-qiyafədir

Dilənçiliyə, tüfeyli həyat tərzi keçirən şəxslərin profilaktikasına qarşı mübarizə kampaniya xarakteri daşımır. Polis bu istiqamətdə qanunvericiliyin tələblərinə uyğun olaraq, dilənçiləri inzibati məsuliyyətə cəlb etməklə qeydiyyatda olduqları rayonlara göndərilməsini təmin edir.

İyul ayında əsasən paytaxt ərazisində 117 nəfər dilənçilik həyat tərzi keçirən şəxs saxlanılaraq, barələrində qanunvericiliyə uyğun tədbirlər görülüb. Onlardan 53 nəfər qadın, 64 nəfər kişi olub. Eləcə də əksər qadın və kişilərin yanında azyaşlıların olması aşkarlanıb.

Saxlanılan şəxslərlə aparılan profilaktik söhbətlər göstərir ki, həmin şəxslərin böyük əksəriyyəti əmək qabiliyyətinə malik olsa da ömür boyu hardasa işləməyə maraqlı olmayıb. Yəni, görünən odur ki, dilənçilik onların həyat tərzi olmaqla, ailə, nəsil ənənəsidir.

Bəzən dilənçiləri fərqləndirmək olmur, ilk baxışda həmin şəxsin dilənçi olması görünmür. Onlar insanların mərhəmət duyğularına təsir edəcək ifadələrdən istifadə edirlər. Bu ifadələri isə göz yaşı ilə qarışdırıb insanları inandırmağa çalışırlar. Ayrı-ayrı şəxslərin "sağlamlıq imkanı məhdud olması" görüntüsü yaradan şəxslərin küçələrdə dilənməsi insanların duyğularına təsir etməklə teatral vəziyyət yaradırlar.



Dilənçiliklə cinayətkarlıq arasında səbəbli-əlaqə var. Bunu təcrübədə rast gəlinən örnəklər də təsdiq edir. Buraya oğurluq cinayətləri, xırda talama və narkotik vasitələrin qanunsuz dövriyyəsi, uşaq əməyinin istismarı aid edilir. Belə görünür ki, bu əlaqə dilənçiliyin yoxsulluq mahiyyətindən ayrılaraq cinayətkarlığın əlamətinə çevirir.

Başqa sözlə, dilənçilik ictimai təhlükəli əmələ meyilli olan şəxs üçün kamuflyaj-qiyafədir, o, ünvanlara, yaxud insanlara daha rahat yaxınlaşa bilir və ictimai təhlükəli niyyətini həyata keçirir. Əgər dilənçi şüurlu olaraq bilsə ki, cəmiyyət onun bu əməlini yaxşı qarşılamır, ona yaxınlaşmayacaqdır. Bunu nəzərə alaraq, bir çox ölkələrin qanunvericiliyində, xüsusilə Türkiyə və İtaliya Respublikasında dilənçiyə sədəqə verilməsi hüquq pozuntusu hesab olunmaqla, pul cəriməsi tətbiq olunur.

Ancaq cəmiyyətimizdə sədəqə verənlərin olması dilənçiliyin həyat tərzinə çevrilməsini, zəhmətsiz yaşamağı onlar üçün şərtləndirir. Bu mənada vətəndaşlarımızı müxtəlif adlar altında qiyafələnmiş, məqsədi dilənçilik, insanların etibarından sui-istifadə olan şəxslərə inanmalarını tövsiyə edirik.

*Aytəkin Nəcəfova*
*polis polkovnik-leytenantı*

# Məqsəd vətəndaş məmnunluğudur

## Polisin fəaliyyəti barədə vətəndaşlar yazır...



İnsanların hüquqlarını, əmlakını qorumaq, cinayətkar ünsürlərlə qətiyyətli mübarizə aparmaq polisin əsas vəzifələrindən biridir. Məhz bu səbəbdən də bu gün hər bir vətəndaş üzləşdiyi çətinliyi aradan qaldırmaq, problemini həll etmək üçün polisə üz tutur. "Əziyyətsiz rahatlıq yoxdur", - deyimi sanki polisin boyuna biçilib. Əziyyətimizin bəhrəsi olan və DİN-ə ünvanlanan məktublarda yazılan fikirlər, xoş sözlər mənəvi dayağımıza çevrilir, bizlərə daha layiqli xidmət üçün stimul verir.

Sosial şəbəkə izləyicisi Nuran İsmayılov: "Övladıma məxsus velosipedin oğurlanması ilə bağlı polisə müraciət etdim. Məni Şöbədə səbrlə dinləyib ərizəmi aldılar. Çox keçmədi ki, velosipedin tapılmasıyla bağlı məlumat aldım. Şöbəyə yaxınlaşıb velosipedi təhvil götürdüm. Müraciətimə operativ baxılmasına, səmimi qəbula və göstərilən köməkliyə görə Səbail RPİ-nin 39-cu Polis Şöbəsinin şəxsi heyətinə minnətdarlığımı bildirirəm".

"Mobil telefonumu naməlum şəraitdə itmişdi. Bununla əlaqədar Sabunçu RPİ-nin 12-ci Polis Bölməsinə üz tutdum. Qısa zaman kəsiyində telefonum tapılaraq mənə qaytarıldı. Müraciətimə həssas yanaşılmasına, operativ baxılmasına, səmimi qəbula və göstərilən köməkliyə görə Azərbaycan Polisinə təşəkkür edirəm". Bu məktub Bakı şəhər sakini Tahirə Məmmədova tərəfindən ünvanlanıb.

Sosial şəbəkə izləyicisi Tunar Ağazadə isə məktubunda yazır: "Bu gün Azərbaycan Polisinin cinayətkarlığa qarşı qatı mübarizə apardığının şahidiyik. Yaşadığım Binəqədi qəsəbəsində polisin fəaliyyətini dəstəkləyirəm.

Xidməti vəzifə borclarını layiqincə yerinə yetirdiklərinə, asayişin təmin olunmasında, cinayətkarlıqla, narkomaniyaya qarşı mübarizədə fəal iştirakına görə Binəqədi RPİ-nin 43-cü Polis Bölməsinin şəxsi heyətinə minnətdaram".

"Üzləşdiyim dələduzluq faktıyla əlaqədar Nərimanov Rayon Polis İdarəsinə müraciət etdim. Müraciətimə operativ baxıldı və mənə dəymiş ziyan ödətdirildi. Bu işdə əməyi keçən hər bir polis əməkdaşına minnətdaram". Bu sətrlər sosial şəbəkə izləyicisi Əli Cəfərovun məktubundandır.

*Ruhiyyə Əliyeva*
*polis kapitanı*

# Qaydalara əməl edək!

Autizmli və digər fərqlilikləri olan uşaqlara diqqət çəkmək məqsədi ilə video çarx hazırlanıb.

Bu barədə Bakı şəhər Dövlət Yol Polisi İdarəsindən məlumat verilib.




Sosial çarxda autizmli və digər fərqlilikləri olan uşaqlara onların cəmiyyətimizin ayrılmaz hissəsi olduqlarını daim hiss etdirməklə yanaşı, ümumilikdə, inkuliziv həyatın, eləcə də hər bir şəxs üçün əhəmiyyəti böyük mənə daşıyan yol hərəkəti qaydalarının və təhlükəsizliyinin təbliği öz əksini tapıb.

# Daxili İşlər Nazirliyi müsabiqə elan edir

## Lənkəran "ASAN Xidmət" mərkəzində vakant olan vəzifələrə xidmətə qəbul aparılır

Daxili İşlər Nazirliyi Baş Pasport, Qeydiyyat və Miqrasiya İdarəsinə bilavasitə tabe olan Lənkəran "ASAN Xidmət" mərkəzi üzrə regional qrupda vakant olan sıravi və kiçik rəis heyəti vəzifələrinə xidmətə qəbulla əlaqədar müsabiqə elan edir.

Müsabiqədə yaşı 20-dən 30-dək, boyu 160 santimetrdən yuxarı olan, Azərbaycan Respublikasının dövlət ali təhsil müəssisələrini bitirmiş, əvvəllər özü və yaxın qohumları qəsdən törədilmiş ağır cinayətlərə görə məhkum edilməmiş (ehtiyatsızlıqdan böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum olunmuş yaxın qohumlar istisna olmaqla), "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamə" ilə müəyyən edilmiş şərtlərə cavab verən, Lənkəran, Astara, Lerik və Yardımlı rayonlarında yaşayış yeri üzrə qeydiyyatda olan və yaşayan qadın vətəndaşlar iştirak edə bilərlər.

Müsabiqə iştirakçılarının sağlamlıq vəziyyəti, biliyi və fiziki hazırlıq səviyyəsi müəyyən olunmuş normativlər üzrə yoxlanılacaq, xarici dillərdən birini sərbəst bilən və kompüterlə işləmək qabiliyyətinə malik namizədlərə üstünlük veriləcəkdir.

Müsabiqədə iştirak etmək istəyən şəxslər avqust ayının 28-dək iş günləri saat 10:00-dan 17:00-dək Lənkəran rayonunun Göyşaban kəndində yerləşən Daxili İşlər Nazirliyinin Baş Pasport, Qeydiyyat və Miqrasiya İdarəsinə bilavasitə tabe olan Cənub Bölgəsində Regional Şöbəsinə müraciət edərək aşağıdakı sənədləri təqdim etməlidirlər:

- şəxsiyyət vəsiqəsi;
- təhsil haqqında sənədin əsli;

**Əlavə məlumat almaq üçün əlaqə telefonu: (012) 590-64-41**

# Əfsanəvi polis xəfiyyəsi – Ejen Fransua Vidokun memuarları - Yeni tələlər

## Əməliyyat-axtarış işinin və kriminalistikanın əsasları

***1828-cı ildə Vidokun elmi-fəlsəfi memuar xarakterli "Parisin sirləri", "Oğru: əxlaq və psixologiya" əsərləri Onore de Balzakın yazdığı ön sözlə nəşr olunub. Təhlil və araşdırmalara görə, Vidokun təcrübəyə əsaslanan qeydləri və tövsiyələri tərbiyəvi mahiyyət daşımaqla, əməliyyat-axtarış işinin, kriminalistikanın konstitusiyasıdır. Bunu nəzərə alaraq, hələ bir neçə il əvvəl Vidokun "Parisin sirləri", "Oğru: əxlaq və psixologiya" əsərlərindən parçaların ilk dəfə Azərbaycan dilinə tərcüməsinə başlamışdıq. Üzərindən uzun illər, onilliklər örtsə də, bu "konstitusiya" qüvvədən düşmür. Odur ki, yenidən və daha təfsilatlı tərcümə ilə əfsanəvi polis xəfiyyəsi Vidokun memuarlarına qayıdırıq.***





Tezliklə cənab Anri bütün məsələlərdə mənimlə məsləhətləşməyə başladı. Biz gecələri bir yerdə cinayətkarlığa qarşı mübarizə tədbirlərini müzakirə edirdik, bizim səylərimiz nəticə verirdi. Dövlət rəhbərliyi, daxili işlər naziri Fuşe imperatoru gördüyüm işlər barədə mütəmadi məlumatlandırırdı. Oğruların sayında da azalma müşahidə edilirdi. Hətta kiçik gümüş oğruları, cibgirlər tam Parisi tərk edirdi. Bilirdik ki, bu vəziyyət uzun müddət davam edə bilməz. Oğruların köhnə üsulları polisə bəlli idi. Bu vəziyyət yeni oğru nəsli yetişdirməli idi. Elə də oldu. Gözləyirdik. Amma onlar artıq mənim zərərsizləşdirdiyim Bombas, Markiz, Buko, Komner, Bute, Pranje, Dorle, Laroza Qavr, Martin və digər oğru və fırıldaqçılara çata bilməzdilər.

İlk altı ay ərzində mən tək, heç bir köməkçi vasitə olmadan işlədim. Yalnız bir neçə dəfə yüngül həyat tərzi keçirən qadınlar mənə kömək etmişdilər. Sırf təsadüfən bir hadisə mənim polis zabitlərindən asılılığıma son qoydu, hansı ki, bu zabitlər hələ də mənim xidmətlərimi öz adlarına çıxırdılar. Bu hal mənə böyük üstünlük verdi və aydın şəkildə polis müfəttişlərinin enerjisinin lazımı səviyyədə olmamasını, onların fəaliyyətsizliyini göstərdi. Çox açıq şəkildə onları işlə həddindən çox yüklədiyimdən şikayətlənirdilər.

### Faktlar hadisəyə çevrilir

Hekayətə çox uzaqdan başlayım. 1810-cu ildə görünməmiş oğurluqlar başlamışdı, daha cəsarətli oğrular meydana gəlmişdi. Onlar fəaliyyətlərini yeni formaya keçirmişdilər və polisə yeni nəsil oğru dəstəsinin haqqında xəbərlər gəlirdi. Demək olar ki, bütün oğurluqlar əsasən qapıların sındırılması və yuxarı mərtəbələrə dırmanmaqla həyata keçirilirdi. Birinci və ikinci mərtəbədəki evlər bu qeyri-adi oğrular tərəfindən talan edilirdi. Bu vaxta qədər bu oğrular yalnız varlı evlərə tamah salırdılar, tez hiss etmək olurdu ki, onlar ətrafı beş barmaqları kimi yaxşı tanıyırlar. Bu oğruların tutulması ilə bağlı bütün səylərimiz boşa çıxırdı.

Polis komissarının yaşadığı evdə, Burbon Vilnev yaxınlığındakı Sen-Klod küçəsində ikinci mərtəbədən oğurluq olmuşdu. Qapıdan asılan fənərin kəndiri oğrular üçün nərdivan rolunu oynamışdı. Atlar üçün kisədə qoyulan yem xurcunu subut edirdi ki, oğrular paytaxtda yük daşıma, taksi xidməti göstərənlərdir, yaxud onlar ekspedisiya zamanı oğrulara yardım göstəriblər. Baxmayaraq ki, oğurluq ustalıqla törədilmişdi. Ancaq orda mütləq "iz" olmalı idi. Həmin "iz"i axtarmağa başladıq. Çünki elə bir cinayətkar yoxdur ki, özündən sonra iz qoymasın.

*(Ardı var)*

# Kriminal xəbərlər

DİN əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində İmişli rayonunun Qızılkənd kəndi ərazisindəki mağazaların birindən 70 manat pul, 2575 manat dəyərində tütün məmulatı və orada quraşdırılan ödəmə terminalından içərisində 9200 manat olan pul qutusunu oğurlamaqda şübhəli bilinən Ağdam rayon sakini, əvvəllər məhkum olunmuş T.Rzayev və Bakı şəhər sakini E.Məmmədov saxlanılıblar.

◆◆◆

Bakı Şəhər Baş Polis İdarəsi və Nərimanov RPİ 17-ci Polis Şöbəsi əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində avqustun 4-də Nərimanov rayonu ərazisindəki evlərin birindən 8.500 manat, 11.000 dollar pul və 13.000 manat dəyərində qızıl-zinət əşyaları oğurlamaqda şübhəli bilinən Ağstafa rayon sakini A.Ələkbərov müəyyən olunaraq saxlanılıb.

◆◆◆

Səbail RPİ 41-ci Polis Bölməsi əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində rayon ərazisindəki mənzillərin birindən 34.300 manat dəyərində qızıl-zinət əşyaları oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakini G.Əliyeva müəyyən olunaraq saxlanılıb.

◆◆◆

Yasamal RPİ 27-ci Polis Bölməsi əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində avqustun 1-də O.Qoçəliyevin qızıl boyunbağısını və mobil telefonunu quldurluq yolu ilə talamaqda şübhəli bilinən Bakı şəhər sakini R.Nuriyev müəyyən olunaraq saxlanılıb.

◆◆◆

Culfa Rayon Polis Şöbəsi əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində avqustun 2-də şəhər ərazisindəki evlərin birindən 6000 manat dəyərində qızıl-zinət əşyaları oğurlamaqda şübhəli bilinən şəhər sakinləri A.Səfərov, V.Həşimov və K.Əliyev müəyyən olunaraq saxlanılıblar.

◆◆◆

Metropolitendə Polis İdarəsinin əməkdaşları tərəfindən görülən tədbirlərlə borclu qismində axtarışda olan Sumqayıt şəhər sakini N.Hüseynov saxlanılıb. Şəxsi axtarış zamanı ondan heroin və metamfetamin aşkar olunaraq götürülüb.

◆◆◆

Mingəçevir Şəhər Polis Şöbəsi əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində Cinayət Məcəlləsinin 177-ci (Oğurluq) və 326-cı (Rəsmi sənədləri, ştampları, möhürləri talama və ya məhv etmə) maddələri ilə axtarışda olan R.Əzizov saxlanılıb.

Araşdırmalarla onun Abşeron rayonunun Qobu, Atyalı və Aşağı Güzdək qəsəbələrində müxtəlif vaxtlarda 3 evdən pul və ümumilikdə dəyəri 10.000 manatdan çox olan qızıl-zinət əşyaları oğurlaması müəyyən olunub.

◆◆◆

Binəqədi RPİ 43-cü Polis Bölməsi əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində avqustun 1-nə keçən gecə Binəqədi qəsəbəsindəki evlərin birindən seyfdən 7500 manat pul və 17.000 manat dəyərində qızıl-zinət əşyalarını oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakini olan bir yeniyetmə müəyyən olunaraq saxlanılıb.

# Suallar: Mülki silahla bağlı qaydalar



**Odlu silahı kimlər əldə edə bilər, yaş həddi neçədir və hansı orqanın səlahiyyəti əsasında bu imkandan yararlanmaq olar?**

Azərbaycan Respublikasının 18 yaşına çatmış hər bir vətəndaşının mülki silah əldə etmək hüququ vardır. Mülki – yəni ov təyinatlı silahı əldə etmək istəyən vətəndaş yaşadığı ərazi polis orqanına və ya Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsinə müraciət edə bilər. Silahın alınmasına xüsusi icazə verilir.

**Mülki silah digər ada necə keçirilir?**

Mülki silahın bir şəxsin adından digərinin adına qeydiyyatının dəyişdirilməsinə yol verilir. Belə halda silahı verən və alan şəxslərin iştirakı ilə ərizələr təqdim edilir. Odlu silahın yararsız vəziyyətdə olduğu (təmiri mümkün olmaması) aşkar edildikdə onun qeydiyyatı dəyişdirilə bilməz. Belə silahlar polis orqanına ödənişsiz təhvil verilir və uçotdan çıxarılır.

**Bəs miras qoyulduqda və ya bağışlandıqda?**

Vətəndaş qanuni əsaslarla mülkiyyətində olan mülki silahı polis orqanını əvvəlcədən xəbərdar etməklə icazəsi olan şəxsə vəsiyyətlə miras qoya bilər və bağışlaya bilər.

**Silah sahibi yaşayış yerini dəyişdikdə polisə məlumat verməlidirmi?**

Odlu silah sahibi olan vətəndaşlar yaşadıqları yeri dəyişdikdə uçotda olduğu polis orqanına bu barədə məlumat verməli, yeni ünvanını bildirməli, yeni yaşayış yerində yerli polis orqanına 10 gün müddətində müraciət etməli və silahı uçota aldırmalıdırlar.

# Söz ehtiyatı və müxtəliflik: necə öyrənək?

## Evi tikmək üçün kərpic lazım olduğu kimi, fikri ifadə etmək üçün də söz lazımdır

Yaxşı danışmaq üçün ən sadə və sınanmış yol-kitab oxumaqdır. Bu, doğrudan da belədir: əgər gözəl danışmaq istəyirsənsə, mütaliə etməlisən. Danışarkən vacib olanı - nitqdə əlaqələri, keçidləri, manevrləri düz qurmaqdır. Ona görə daha yaxşı olar ki, fərqli üslublarda, həm də xoşunuza gələn kitabları oxuyasınız. Ədəbi normalara uyğun olaraq, şer, poema və roman oxumaq faydalıdır.

Adamın iki qulağı, bir ağzı var. Düşünmədən danışmaq-nişan almadan tətik çəkməyə bənzəyir. Sözlər nəticəyə aparır. Söz toxumdur. Sözü deməmişdən əvvəl diqqətlə dinləmək, deyəcəklərini yaxşı-yaxşı düşünmək lazımdır. Bu sadə həqiqət hamıya məlumdur. Nə qədər az danışılsa o qədər də səhv etmək ehtimalı azalır. Çünki məlumatsız, oxumayan, hazırlıqsız insan qarşısına çıxacaq suallara cavab verə bilmədikə onda emosional gərginlik yaranır, nitq nəzarətdən çıxır.

Əgər fikri elektrik cərəyanına, dili isə lampaya bənzətsək, onda bunları mütləq etibarlı məftillər birləşdirməlidir. Məftillər yaxşı olmasa, lampa ya yanmayacaq, ya da yanıb-sönəcək, yəni, fikir beyindən dilə qırıq-qırıq gəlib çatacaq, hətta qabaqcadan hazırlanmış yaxşı nitq əlaqəsiz söz yığınına çevriləcəkdir. Gözəl bir deyim var, insanı geyiminə görə qarşılayıb, ağlına görə yola salarlar. Ağlın göstəricisi isə nitqdir, insan məhz nitqi ilə özü haqqında təsəvvür yaradır. Hər bir insan ətrafdakılar tərəfindən qiymətləndirilir. Bu zaman əsas meyarlardan biri onun kommunikativ (ünsiyyət) bacarıqları, danışıq keyfiyyətləridir.

**Ağıl əmr edəni dil bəyan edər. – Xaqani**

**Danış ki, səni görüm. - Sokrat**

**Bacarmırsan təqlid et, özünü oxşatmağa çalış, vərdiş yaranacaqdır. – Aristotel**

**Nitqi çox bəzəsən, məqsəddən uzaq düşərsən. - Cəlaləddin Rumi**

**Nitq - heyranedici güclü vasitədir. Ondan istifadə etmək üçün ağıllı olmaq lazımdır. - Georq Vilhelm Fridrix Hege**

**Natiqliyin əsas şərti nitqi vaxtında və nida ilə bitirməkdir. - Əbu Turxan**

POLİS
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 10390
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az
Qiyməti 40 qəpik